# KEYFİYYƏT BƏYANATI

SOCAR quruda və dənizdə karbohidrogen ehtiyyatlarının kəşfiyyatı, işlənməsi, hasilatı, emalı və nəqli, eləcə də digər xidmət sahələri üzrə idarəetmə proseslərini, əməliyyatların bütövlüyünü, mükəmməliyini və keyfiyyətini tətbiq olunan beynəlxalq təcrübələrə və standartlara uyğun şəkildə yerinə yetirməklə enerji keçidi, innovasiyalar və rəqəmsallaşdırma vasitəsilə əməliyyatları inkişaf etdirərək ölkə daxilində və xaricində qabaqcıl enerji şirkəti olmaq məramına xidmət edir.

Biz sifarişçilərimizin tələblərini təmin etmək və onların gözləntilərini tam qarşılamaq məqsədilə öz işimizi vaxtında, ardıcıl və qüsursuz yerinə yetirərək, milli, dövlətlərarası və beynəlxalq standartların tələblərinə uyğunlaşdırmaq və davamlı inkişaf əldə etmək üçün aşağıdakı öhdəlikləri qəbul edir və böyük məsuliyyətlə yerinə yetiririk:

1. *Bütün biznes vahidlərində Müştəri yönümlülük prinsiplərini və qanunvericilik tələblərini prioritet tutaraq, məmnuniyyət səviyyəsinin artırılmasını təşviq etmək;*
2. *Biznes ehtiyaclarını yerinə yetirmək, dəyişən tələblər və enerji sahəsində qabaqcıl innovasiyaların tətbiqi baxımından beynəlxalq rəqabətdə üstünlüyümüzü gücləndirmək;*
3. *Səlahiyyətli qurumlar, tərəfdaşlar və maraqlı tərəflərə qarşı şəffaf və adekvat münasibət nümayiş etdirməklə peşəkar təchizat zəncirinin qurulmasına töhfə vermək;*
4. *Biznes proseslərinin davamlı inkişafı və yüksək nəticələrin əldə edilməsi məqsədilə ölçüləbilən məqsəd və hədəflər təyin etmək;*
5. *Məqsədləri yerinə yetirmək və biznes ehtiyaclarını ödəmək üçün korporativ mədəniyyət formalaşdırmaq, komanda quruculuğuna güclü dəstək olmaqla, fərdi inkişafı təşviq etmək;*
6. *Öyrənmə və inkişafa sərmayə qoyaraq müvafiq təlim, təcrübə və qiymətləndirmə proqramları vasitəsilə əməkdaşların səriştəliliyini davamlı inkişaf etdirmək;*
7. *SOCAR-ın Əməliyyatların Bütövlüyünün İdarəetmə Sistemi (SOIMS), o cümlədən beynəlxalq idarəetmə sistemi standartlarının əsas prinsip və tələblərinə uyğunluğunu təmin etmək və səmərəliliyi daim inkişaf etdirmək;*
8. *Əməliyyatların həyata keçirilməsində, eləcə də onlara istənilən dəyişiklikdə "risk əsaslı düşüncə" formalaşdırmaqla güclü və effektiv önləyici tədbirləri reallaşdırmağa davamlı təşviq etmək;*
9. *Biliklərin, məlumatların, sənədlərin idarə olunmasında ən qabaqcıl təcrübələrdən yararlanmaqla müvafiq rəqəmsal idarəetmə sistemlərini qurmaq və davamlı şəkildə inkişaf etdirmək;*

Biz yuxarıda qeyd olunan öhdəliklərə sadiq qalaraq, müntəzəm və tez-tez təkrar olunan idarəetmə sistemi qiymətləndirmələri və auditləri vasitəsilə biznes fəaliyyətimizin inkişaf etdirilməsi, "Keyfiyyətə əminlik və nəzarət" mexanizmlərinin müəssisələrimizdə uğurla tətbiqinin təmin edilməsinə daim çalışacağıq.

**SOCAR prezidenti** **Rövşən Nəcəf**

SOCAR-BO-SYT-001 | Rev. B02 | 26.07.2024